# Azərbaycanın bugünkü simasını YARADAN ŞƏXSİYYƏT

***❐ Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü il iyunun 15-i xalqımızın şərəf tarixidir. Məhz o zaman – 1993-cü ilin iyun günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə qurtuluş savaşında qələbəyə doğru gedən uğurlu yolda ilk addımlar atıldı.***



Həmin dövrdə Azərbaycanda həyatın bütün sahələrində olduğu kimi, idmanda da dərin böhran baş verirdi. Bu sahənin şöhrət zirvəsinə gedən yolu da başlanğıcını məhz müstəqilliyimizi əbədi edən Milli Qurtuluş Günündən götürdü. Ulu öndər Heydər Əliyev bədən tərbiyəsi və idmanın inkişafına diqqət çəkərək, "...İdman, bədən tərbiyəsi gənclərimizin daha da sağlam olması üçün lazımdır. Bu, müstəqil Azərbaycanın gələcəyi üçün əsasdır.", - bu sahənin mühüm rolunu qeyd etməsi onun həyatımız üçün nə qədər böyük önəm daşıdığını göstərirdi. Eyni zamanda, məhz müstəqillik xalqımızın, xüsusən, gənclərimizin idman və fiziki hazırlıq sahəsində də imkanlarını açmaq, geniş nümayiş etdirmək imkanı verə bilərdi. Təəssüf ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpasının ilk illərində baş verən xaos, qarışıqlıq, siyasi-ideoloji və iqtisadi böhran bütün sahələrlə yanaşı, idmanın da bərbad hala düşməsinə səbəb olmuşdu. Paytaxt və regionlarda idman infrastrukturunun dağıdılması və yaxud digər məqsədlər üçün istifadə edilməsi geniş hal almışdı.

Qeyd edim ki, Azərbaycanda idman infrastrukturu, əsasən, Heydər Əliyevin ölkəmizə ilk rəhbərliyi dövründə qurulmuşdu. O zamana qədər idmançılarımız SSRİ komandasında beynəlxalq yarışlara, Olimpiya Oyunlarına ölkədən kənarda hazırlaşırdılar. Heydər Əliyevin ölkəmizə hələ birinci rəhbərliyi dövründə -1969-cu ildən başlayaraq həyatın bütün sahələrində, eləcə də idmanda böyük diqqət və qayğının təzahürü olaraq, 1970-ci illərdə təkcə Bakıda minlərlə idman meydançası və şəhərciyi salınmışdı. 1973-cü ildə paytaxtımızda möhtəşəm idman sarayının təməli qoyularaq inşa edildi. Bir ildən sonra artıq ölkəmizin 36 rayonunda 59 uşaq-gənclər idman məktəbində yüzlərlə uşaq və yeniyetmə müxtəlif idman növlərinin sirlərinə yiyələnməyə başlamışdı. Sonrakı illərdə paytaxt Bakıda və regionlarda qurulan idman infrastrukturu uşaq və yeniyetmələrdə bu sahəyə böyük maraq oyadaraq, onun kütləviliyinin təmin olunmasına ciddi təkan vermişdi. İdmana dövlət qayğısı həmin dövrdə çoxlu istedadlı idmançıların ərsəyə gəlməsi üçün geniş imkanlar yaratmışdı.

Bu sahəyə tarixən marağın güclü olduğu Azərbaycanda bədən tərbiyəsi və idmanın vəziyyətinin bu qədər acınacaqlı hal alması gənclərin həyat tərzinə və sağlamlığına ciddi təsir göstərirdi. Müharibə şəraitində yaşayan bir ölkədə bu sahənin yox dərəcəsinə gətirilməsi gənclər arasında zərərli vərdişlərə, qeyri-sağlam həyat tərzinə meyili artırırdı.

Hələ sovetlər dövründə qazandığı müvəffəqiyyətlərlə məşhurlaşmış adlı-sanlı idmançılarımızın böyük əksəriyyətinin dözülməz şərait ucbatından Azərbaycanı tərk etmək məcburiyyətində qalması da o illərin acı reallığı idi.

Heydər Əliyev idmanın, bədən tərbiyəsinin geniş imkanlarına diqqət çəkərək, onun ümumxalq hərəkatına çevrilməsi üçün gərgin fəaliyyətə başladı. Ulu öndər idmanın dövlətimizin dünyada tanınmasında, imicinin möhkəmlənməsində müstəsna rolunu önə çəkərək deyirdi: "İdman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm sosial sahədir. Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən baş verir. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır".

Ümummilli liderin hakimiyyətə qayıdışından sonra dövlət siyasətinin prioritet qollarından birinə çevrilən bədən tərbiyəsi və idmanın inkişafı istiqamətində vacib tədbirlərin həyata keçirilməsi, bu sahədə çatışmazlıqlar və problemlərin aradan qaldırılması, idmançıların maddi rifahının yüksəldilməsi, gələcək qələbələr üçün stimul verilməsi ilə yanaşı, idman infrastrukturunun qurulması istiqamətində də önəmli addımlar atıldı. 1993-cü ilin noyabrında ulu öndər dünya və Avropa səviyyəli yarışlarda yüksək nəticələr qazanmış idmançıları qəbul etdi. İdman sahəsinin həm də milli məfkurə, mədəni irs və düşüncə sistemi əsasında inkişafını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirən Heydər Əliyev idmançıların dövlətin xüsusi qayğısı ilə əhatə olunmalarının vacibliyini qeyd edirdi.

1994-cü ildə ölkənin idman və gənclər həyatını özündə cəmləşdirən Respublika Gənclər və İdman Nazirliyi, 1995-ci ildə isə Azərbaycan İdman Fondu yaradıldı. İdman ictimaiyyəti ilə görüşündə ümummilli lider Heydər Əliyev bəyan etdiyi "Şəxsən mən söz vermişəm və indi də təsdiq edirəm ki, idmana xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz", fikirləri ulu öndərin Azərbaycan idmanının inkişafına nə qədər böyük önəm verdiyini sübut edirdi. Azərbaycanı müstəqil komanda kimi təmsil etdiyimiz ilk olimpiadada "Atlanta-1996"-da komandamızın qazandığı bir medalı Heydər Əliyev reallığa görə görkəmli nailiyyət adlandırdı.

1997-ci ildə ulu öndər Heydər Əliyevin idman sahəsində həyata keçirdiyi siyasət keyfiyyətcə yeni və mühüm mərhələyə keçid aldı. Rəhbərlik etdiyi bütün sahələrdə yüksək nailiyyətlərə imza atan cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi ilə respublikamızda Olimpiya hərəkatının və bütövlükdə idmanın inkişafında yeni mərhələnin əsası qoyuldu. Azərbaycanın Olimpiya Oyunlarında layiqincə təmsil olunmasına imkanlar yaratmaq, MOK-u beynəlxalq Olimpiya ailəsində nüfuzlu bir təşkilata çevirmək, idmanın Olimpiya növləri ilə yanaşı, qeyri-olimpiya növlərini də inkişaf etdirmək, idmançıların sosial vəziyyətini yaxşılaşdırmaq, idmançı uğurunu və əməyini qiymətləndirmək, uşaq və yeniyetmələri idmana cəlb etmək əsas vəzifələrdən biri kimi qarşıda qoyuldu.

Vacib işlərdən biri kimi beynəlxalq yarışların Azərbaycanda keçirilməsinə nail olmaq, beynəlxalq tədbirlərə fəal şəkildə qoşulmaq gündəmdə idi. O zaman ən kiçik beynəlxalq tədbirin belə ölkəmizdə keçirilməsi çox çətinlik yaradırdı. Bir tərəfdən infrastruktur problemi, digər tərəfdən dünyanın Azərbaycan həqiqətlərindən xəbərsizliyi öz işini görürdü. Çətinliklə də olsa, ilk beynəlxalq tədbirlərimizi Bakıda reallaşdırdıqdan sonra Azərbaycanın sülhsevər ölkə olması, beynəlxalq tədbirlərin təşkilində bacarığı, genişlənməkdə olan imkanları tədbirlər zamanı ölkəmizə gələnlərin diqqətini getdikcə özünə cəlb etməyə başladı.

> ***...İdman, bədən tərbiyəsi gənclərimizin daha da sağlam olması üçün lazımdır. Bu, müstəqil Azərbaycanın gələcəyi üçün əsasdır.***
>
> ***Heydər ƏLİYEV***
> ***Ümummilli lider***

Ölkəmizdə idmanın maddi-texniki bazasının inkişafı, idmançılara yüksək diqqət və qayğı artıq beynəlxalq arenalarda qazanılan nailiyyətlərdə özünü göstərirdi. İdman ictimaiyyəti ilə görüşündə ümummilli lider "Baxın, qısa bir müddətdə hər şeyi nə tez dağıtmaq olardı. Həmin o dağıntıları qısa bir müddətdə aradan qaldırıb Azərbaycanın bugünkü simasını yaratmaq lazım idi. Biz bunu yaratdıq", - deyə quruculuq sahəsində atılan önəmli addımlara diqqət çəkirdi.

Azərbaycanda quruculuq erasının başlanması ilə bədən tərbiyəsi və idman da vahid qüvvəyə çevrildi. Nailiyyətlər özünü çox gözlətmədi. Sidney Olimpiadasında komandamız böyük qələbəyə imza atdı. Heydər Əliyev "Sidney-2000"-də iştirak etmiş olimpiyaçılarla və idman ictimaiyyəti ilə görüşdə "Ötən doqquz ildə Azərbaycanın müstəqillik dövründə bizim nailiyyətlərimiz az olmayıbdır. Ancaq indiyə qədər bütün xalqımızı, bütün vətəndaşlarımızı bu qələbə qədər, bu nailiyyət qədər sevindirən heç bir şey olmamışdır", - deyə bu qələbənin xalqımız üçün nə qədər böyük önəm daşıdığını diqqətə çatdırdı.

Sidney Olimpiadasından sonra istifadəyə verilən ilk Olimpiya İdman Kompleksinin açılışında iştirak edən Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqqun "Məndən bu regionda idmanın inkişafını soruşduqda, böyük məmnuniyyətlə sizin ölkənizi nümunə göstərirəm", - deməsi artıq bu inkişafa verilən ilk böyük qiymət idi. Daha sonra nüfuzlu beynəlxalq idman qurumlarının rəsmiləri dəfələrlə yüksək kürsülərdən Azərbaycan idmanının inkişafı ilə bağlı dəyərli fikirlər səsləndirmişlər.

2000-ci ildən etibarən Azərbaycanın müxtəlif bölgələrində müasir tipli Olimpiya idman kompleksləri tikilib istifadəyə verilməyə başladı. İndi ölkəmizin elə guşəsi tapılmaz ki, orada mükəmməl idman infrastrukturu qurulmasın və bu iş uğurla davam etdirilir.

Qurtuluş tariximiz Azərbaycan xalqının arzuladığı xəyalları bu gün gerçək edib. Bu sirr deyil ki, hər bir dövlətin idman nailiyyətləri, həm də onun inkişafının hansı səviyyədə olduğunu göstərir. Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında nailiyyətlərimizin sayının durmadan artması, məhz Azərbaycanımızın hansı sürətlə inkişaf etdiyini əyani göstərirdi. Komandamız "Atlanta-1996"da 1, "Sidney-2000"də 3, "Afina-2004"də 5, "Pekin-2008"də 7, "London-2012"də 10 medal qazanmışdısa, "Rio-2016"da 18 medal əldə etdi!

Müstəqil komanda kimi təmsil olunduğumuz "Atlanta-1996"-da 21 idmançıdan biri medal qazanmışdısa, Rio Olimpiadasında 56 idmançıdan 18-i medalçılar sırasında yer aldı. Daha bir statistikanın müqayisəsi son illər bu sahədə nə qədər sürətlə irəlilədiyimizi sübut edir. Müstəqil ölkə kimi təmsil olunduğumuz 6 olimpiadada cəmi 44 medal qazanmışıqsa, bu medalların 18-i məhz son Olimpiadanın – "Rio-2016"-nın payına düşür. Bu möhtəşəm qələbələr Azərbaycana böyük şərəf gətirmişdir.

Ulu öndər Azərbaycanın lider dövlət olmasını arzulayırdı və istəyirdi ki, dünya ölkəmizin nəyə qadir olduğunu görsün. Ümummilli liderimizin arzuları Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı tərəfindən uğurla həyata keçirilir. Azərbaycan bu gün dünyanın lider dövlətləri arasında böyük nüfuz qazanıb. Azərbaycan Avropanın ən böyük idman tədbiri olan Avropa Oyunlarının vətənidir. İlk Avropa Oyunlarında komandamızın Rusiyadan sonra ikinci yerdə qərarlaşması möhtəşəm quruculuq işlərinin əyani sübutudur. İslam dünyasının ən böyük idman tədbirini yüksək səviyyədə keçirməklə, müsəlman dünyasına böyük töhfələr verən ölkəmizin güclü potensialı bu mötəbər oyunların nəticələrində özünü göstərdi – müsəlman ölkələrinin komandaları arasında birinci yer! "Formula-1" kimi dünyanın ən məşhur yarışlarının ölkəmizə gətirilməsi daha bir uğurumuzdur. Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilib. Dünya ölkəmizi ən güclü idman dövlətlərindən biri kimi tanıyır. Ölkəmiz örnək kimi dünya ölkələrinə nümunə göstərilir. Ulu öndərin arzusu bu idi! Müasir, müstəqil Azərbaycanı dünyada tanıtmaq və möhtəşəm qələbələrimizlə dünyaya nümunə olmaq!

***Ağacan ABİYEV,***
***Milli Olimpiya Komitəsinin baş katibi, Milli Məclisin deputatı, professor***